

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 14 yanvar 2026-cı il №3 (3005) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Son 80 il ərzində Azərbaycan kimi tam və mütləq Qələbə qazanan ikinci ölkə olmayıb

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Tərtər elektromexanika zavodunun yenidənqurmadan sonra açılışında iştirak edib.*



Dövlətimizin başçısı əvvəlcə Ulu Öndər Heydər Əliyevin zavodun həyətində ucaldılmış büstü önünə gül dəstəsi qoyub.

Müdafiə sənayesi naziri Vüqar Mustafayev dövlətimizin başçısına müəssisədə yaradılmış şərait barədə məlumat verib.

Bildirilib ki, zavod 1976-cı ildə Lionozovo elektromexanika zavodunun Tərtər filialı olaraq yaradılıb. 1977-ci ilin aprelində fəaliyyətə başlayan zavodda elektrotexnika sənayesi məhsulları və xüsusi təyinatlı məhsullar istehsal edilib. İlk illərdə burada mühərrikli qayıqlar üçün "Taxometr-spidometr" məhsulları hazırlanıb.

Zavodun əsasını qoymuş Ümummilli Lider Heydər Əliyev 1978-ci ildə onun rəsmi açılış mərasimində iştirak edib.

Prezident İlham Əliyevin 2005-ci ildə imzaladığı Sərəncama əsasən, Müdafiə Sənayesi Nazirliyi yaradılıb və Tərtər elektromexanika zavodu nazirliyin tabeliyinə verilib.

Müxtəlif növ hərbi təyinatlı məhsullar istehsal ediləcək müəssisədə bir sıra qabaqcıl dövlətlərdən alınmış müasir, yüksəkdəqiqlikli texnoloji avadanlıqlar quraşdırılıb. Texnoloji xətlərin layihələndirilməsi, istehsal axınlarının qurulması və seriyalı istehsala uyğunlaşma "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" QSC-nin yerli mütəxəssisləri tərəfindən icra edilib. Hazırda istehsal proseslərinin milli hərbi-texniki normalara, beynəlxalq keyfiyyət standartlarına uyğunlaşdırılması həyata keçirilir. Bu məqsədlə keyfiyyətə nəzarət laboratoriyası yaradılıb.

Zavodun ərazisində genişmiqyaslı tikinti və yenidənqurma işləri həyata keçirilib, yeni istehsalat binaları və sahələri, həmçinin köməkçi binalar istifadəyə verilib. Mövcud tikililərdə yenidənqurma işləri aparılıb, texnoloji prosesin tələblərinə uyğun olaraq ballistik və resurs sınaqları üçün xüsusi poliqonlar yaradılıb.

(Ardı 2-ci səhifədə)

## Ötən həftə 177 mina və 636 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən yanvarın 5-11-də icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 152, tank əleyhinə 25 mina və 636 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 875,1 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.




## Müqəddəs peşənin sahibləri

"Sizin peşəniz elə bir peşədir ki, hər bir insana lazımdır və dünyanın hər bir yerində lazımdır. Bu, sizin kimi adamlar üçün böyük xoşbəxtlikdir. Çünki siz hamıya, hər bir vətəndaşa, cəmiyyətə, dövlətə lazımsınız. Ona görə də sizin sahəniz çox dəyərli sahədir, xalq, cəmiyyət, ölkə, dövlət üçün çox vacib sahədir", - bu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin həkimlərə ünvanladığı sözlərdir.

Məlum olduğu kimi, həkim olmaq böyük məsuliyyət tələb edən bir peşədir. Bu peşənin sahiblərinə hər birimiz öz sağlamlığımızı etibar edirik. Hərbçi həkim olmaq isə ikiqat məsuliyyət tələb edir. Çünki torpaqlarımızı gecə-gündüz qoruyanların sağlamlığının keşiyində dayanırsan. Onlar sağlam olmalıdırlar ki, Vətənimizi etibarlı qorusunlar.

Hərbçi həkimlərimiz bu müqəddəs vəzifənin öhdəsindən layiqincə gəlməyə çalışırlar. Bu gün ölkəmizdə, o cümlədən Azərbaycan Ordusunda digər sahələrdə olduğu kimi, hərbi tibb sahəsində də islahatlar həyata keçirilir. Müasir avadanlıqlarla təchiz olunan tibb məntəqələrində peşəkar və savadlı tibbi personal fəaliyyət göstərir.

(Ardı 5-ci səhifədə)



## Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Hərbi Prokurorluğu arasında birgə tədbirlər planı imzalanıb

Azərbaycan Ordusunda 2026-cı il ərzində hərbi intizamın gücləndirilməsi və hüquq pozuntularının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Hərbi Prokurorluğu arasında birgə tədbirlər planı imzalanıb.

Müdafiə Nazirliyi xəbər verir ki, sənəddə cari il boyu həyata keçirilməsi planlaşdırılan birgə tədbirlər, onların icra müddəti, keçiriləcəyi yerlər və məsul şəxslər müəyyən edilib.

Tədbirlər planına əsasən, 2026-cı il ərzində Müdafiə Nazirliyinin tabeliyində olan qoşun (qüvvə) növləri, birlik, birləşmə və hərbi hissələrdə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində xidmət edən hərbi qulluqçularla Hərbi Prokurorluq əməkdaşlarının görüşlərinin təşkili nəzərdə tutulur.

Bu görüşlər çərçivəsində şəxsi heyətin hüquqi biliklərinin artırılması, nizam-intizamın və qanunçuluğun möhkəmləndirilməsi, mövcud problemlərin aradan qaldırılmasına yönəlmiş tədbirlərin icrası öz əksini tapıb.

## Kəşfiyyatçı polkovnik İrza bəy Hacıbəylinski



İrza bəy Hacıbəylinski 4 aprel 1874-cü ildə İrəvan quberniyasında zadəganlar nəslinə mənsub ailədə doğulub. Ümumi təhsilini İrəvan Gimnaziyasında alıb. Hərbi təhsil almaq üçün Yelizavetqrad Süvari Məktəbinə qəbul olub, sıravi yunker kimi xidmətə başlayıb. 27 aprel 1898-ci ildə məzun olaraq "kornet" rütbəsi alıb və İmperator Əlahəzrətləri Böyük Knyaz Mixail Mixayloviçin 21-ci Draqun Alayına təyin edilib.

(Ardı 7-ci səhifədə)

## Dağların köksündəki heyrətamiz Pəri qalası



Zaqatala rayonunun ərazisində orijinal xüsusiyyətlərə malik qədim tarixi-memarlıq abidələri çoxdur. Belə abidələrdən biri də rayonun Yuxarı Çardaqlar kəndinin ərazisində yerləşən Pəri qalasıdır. Qalanın inşa tarixi dəqiq bəlli olmasa da (bəzi mənbələrə görə isə təqribən III-V əsrlərdə inşa olunub), tədqiqatçılar tikilmə üslubuna görə (Alban memarlığı üslubuna uyğun), onun Qafqaz Albaniyası dövründə inşa olunduğunu güman edirlər.

(Ardı 7-ci səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Son 80 il ərzində Azərbaycan kimi tam və mütləq Qələbə qazanan ikinci ölkə olmayıb

(Əvvəli 1-ci səhifədə)

Qeyd edək ki, Azərbaycan Prezidenti müdafiə sənayesinin inkişafına xüsusi diqqət yetirir. Bu sahədə yerli şirkətlər qurulur, xarici tərəfdaşlarla əlaqələr genişləndirilir, ən müasir çağırışlara cavab verən texnologiyaların tətbiqi ilə istehsalın həcmi artırılır. Ötən il ölkəmiz 1,4 milyard manat dəyərində hərbi təyinatlı məhsul istehsal edib ki, bunların bir hissəsi Azərbaycan Silahlı Qüvvələrinin arsenalına, bir hissəsi isə ixraca yönəldilib. Hazırda Azərbaycan 20-yə yaxın ölkəyə hərbi təyinatlı məhsullar ixrac edir.





* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Çapar kəndində görülmüş işlərlə tanış olub.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına kənddə görülmüş işlər barədə məlumat verib.




Qeyd edək ki, Çapar Ağdərə rayonunun İmarət Qərvənd kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsinin cənub-şərq yamacında yerləşir. Burada qala və məbəd memarlıq abidələri var. Çapar kəndi Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ildə həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

Çaparda mövcud olan fərdi evlərin sayı 104-dür. Onlardan da 41-i yararsız, 63-ü isə qismən yararlıdır. Evlərdən 40-ı artıq istismara hazırdır. İl ərzində daha 23 ev bərpa ediləcək. İlkin olaraq kəndə 26 ailə (96 nəfər) qayıdıb.

Burada sosial məsələlərin həlli ilə bağlı bir çox iş görülüb. Belə ki, 3 ədəd mövcud transformator və elektrik xətti bərpa edilib, yeni elektrik, qaz və rabitə xətləri çəkilib, su şəbəkəsi yaradılıb, su anbarları bərpa olunub. Uzunluğu 6 kilometrə yaxın olan kənddaxili yollar yenidən qurulub. Kənddə yeni salınmış park da sakinlərin istifadəsinə veriləcək.

Sonra Prezident İlham Əliyev kəndə köçən Kəmalə Dadaşovanın ailəsinə baş çəkib və yaşayış şəraiti ilə maraqlanıb.

Doğma yurduna qayıtmasından sonsuz qürur duyduğunu bildirən Kəmalə Dadaşova Prezident İlham Əliyevə minnətdarlığını ifadə edib.

Dövlətimizin başçısı Kəmalə Dadaşovanı yeni evinə köçməsi münasibətilə bir daha təbrik edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Qozlukörpü kəndində "Qozlukörpü" Su Elektrik Stansiyasının (SES) açılışında iştirak edib.

"AzərEnerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayev dövlətimizin başçısına bu stansiya, həmçinin Qarabağda və Şərqi Zəngəzurda yerləşən su elektrik stansiyalarının vəziyyəti, Tərtərçay silsiləsinin mövcud və perspektiv hidroenerji potensialı barədə məlumat verib.

Bildirilib ki, işğaldan azad edilmiş ərazilərimizdə istismar olunan 307 MVt gücündə 38 su elektrik stansiyasında 2025-ci ildə 750 milyon kilovat-saat yaşıl enerji istehsal edilib. Bununla da 160 milyon kubmetr təbii qaza qənaət olunub, 280 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb.

Tərtərçayın hidroenerji potensialının 30 SES olması müəyyən edilib. Hazırda 22 SES "AzərEnerji" ASC tərəfindən istismardadır, 5 SES-in tikintisi icra olunur, 3 SES-in inşası nəzərdə tutulur. Qeyd edək ki, Tərtərçay tamamilə ölkə daxilində formalaşır.

Prezident İlham Əliyevin Qarabağın və Şərqi Zəngəzurun yaşıl enerji zonasına çevrilməsi ilə bağlı tapşırığına uyğun olaraq Ağdərə rayonunda, regionun ən iri su arteriyası olan Tərtərçay üzərində inşa edilmiş "Qozlukörpü" Su Elektrik Stansiyası 14,7 meqavat gücündədir. Sərt relyef, iqlim şəraiti və çətin logistika səbəbindən tikinti prosesi digər bölgələrlə müqayisədə daha çox vaxt tələb etməsinə baxmayaraq, layihə qısa müddətdə uğurla icra olunub. Dəniz səviyyəsindən 955 metr yüksəklikdə müasir baş suqəbuledici qurğu yaradılıb. Bütün texniki və ekoloji amillər nəzərə alınmaqla inşa edilən bu qurğudan stansiyaya suyun ötürülməsi üçün çətin dağlıq ərazidə 13 kilometr uzunluğunda derivasiya borusu çəkilib. Burada ölkədə ilk dəfə olaraq müasir enerji istehsalında istifadə edilən qurğular quraşdırılıb. Onlar azsulu dövrlərdə 25 faiz, bolsulu dövrlərdə isə 100 faiz məhsuldarlıqla fasiləsiz işləyə bilir.

Stansiyanın ölkə enerjisistemine qoşulması üçün açıq paylayıcı qurğu yaradılıb, həmçinin optik kabel xətti çəkilərək stansiya rəqəmsal idarəetmə sisteminə inteqrasiya olunub.

Burada il ərzində orta hesabla 43 milyon kilovat-saat elektrik enerjisinin istehsalı nəzərdə tutulur ki, bununla da 9,5 milyon kubmetr təbii qaza qənaət ediləcək, 18 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınacaq.

Qeyd edək ki, layihə çərçivəsində ətraf mühit amillərinə diqqət yetirilib. Belə ki, çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısının alınması üçün xüsusi hidrotexniki qurğular tikilib. Bunlar, eyni zamanda, zərərli maddələrin suya qarışmasının qarşısını almaqla, onun keyfiyyət göstəricilərində heç bir dəyişiklik etmədən aşağı axarda yenidən çaya qaytarır. Ətraf mühitə dost texnoloji avadanlıqlardan istifadə çay ekosisteminin dayanıqlığını təmin etməklə yanaşı, su ehtiyatının formalaşmasına da töhfə verəcək.



* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Heyvalı kəndində görülmüş işlərlə tanış olub.

Dövlətimizin başçısına kənddə icra olunan abadlıq işləri və planlaşdırılan infrastruktur layihələri barədə məlumat verilib.

Heyvalı kəndi Ağdərə rayonunun eyniadlı inzibati ərazi dairəsində, Qarabağ silsiləsinin ətəyində yerləşir. İşğaldan əvvəl yerli əhalinin əsas məşğuliyyətini taxılçılıq, tütünçülük və heyvandarlıq təşkil edib, kənddə məktəb, klub və poçt kimi sosial obyektlər fəaliyyət göstərib. Kənd 2023-cü ildə həyata keçirilən antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.



Qeyd edək ki, Heyvalıda mövcud olan 126 fərdi evdən 45-i artıq tam bərpa edilib və istismara hazırdır. İl ərzində daha 50 evin bərpası nəzərdə tutulur. Artıq doğma yurduna dönən 19 ailənin (74 nəfər) məskunlaşması üçün bütün zəruri şərait yaradılıb.

Kəndin yenidən qurulması çərçivəsində sosial infrastrukturun bərpası istiqamətində genişmiqyaslı işlər görülüb. Belə ki, 2 mövcud transformator, enerji və qaz xətləri bərpa olunub, yeni rabitə xətləri çəkilib. Sakinlərin içməli su ilə təmin olunması üçün 60 kubmetrlik çən quraşdırılıb və su şəbəkəsinin inşası üzrə işlərə başlanılıb. Bundan əlavə, 4,5 kilometr uzunluğunda kənddaxili yollar əsaslı şəkildə bərpa olunub və sakinlərin asudə vaxtı üçün yeni istirahət parkı salınıb.

Sonra Prezident İlham Əliyev kənd sakini Sarvan Abbasovun ailəsinə baş çəkib, yeni evdə yaradılmış şəraitlə tanış olub, məşğulluq imkanları ilə maraqlanıb.

Sarvan Abbasov doğma torpaqlarına qayıtmağın sevincini bölüşərək, dövlətimizin başçısına və Ordumuza minnətdarlığını ifadə edib.

Prezident İlham Əliyev ailənin üzvlərinə doğma yurdlarında firavan həyat arzulayıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Canyataq kəndində "Dəmirli" Filiz Emalı Kompleksinin fəaliyyəti ilə tanış olub.

İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Azerbaijan International Mining Company Limited" şirkətinin prezidenti və baş icraçı direktoru Rza Vəziri dövlətimizin başçısına kompleks barədə məlumat veriblər.

Bildirilib ki, komplekse mis flotasiya zavodu, nəm tullantı anbarı, elektrik yarımstansiyası və digər tikililər daxildir. Mədən və istehsalat üzrə ümumi sahəsi 929 hektar olan kompleks Türkiyə və Almaniya texnologiyası əsasında yenidən qurulub. Yenidənqurma və bərpa işlərinə 15,3 milyon manat özəl investisiya yatırılıb.

"Dəmirli" Azərbaycanın işğaldan azad edilmiş ərazilərində dağ-mədən sənayesi üzrə işə başlayan ilk layihədir. Mis flotasiya zavodunda "Dəmirli" mədənindən çıxarılan filiz emal ediləcək və son məhsul - mis konsentratı istehsal olunacaq. Mis flotasiya zavodunun illik istehsal gücü 5,6 milyon ton filiz emalıdır.

(Ardı 3-cü səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Son 80 il ərzində Azərbaycan kimi tam və mütləq Qələbə qazanan ikinci ölkə olmayıb

**(Əvvəli 2-ci səhifədə)**

1993-cü ildən Ermənistanın işğalı altında olan "Dəmirli" mis yatağı 2013-cü il mayın 13-dən etibarən təqribən 10 il ərzində qeyri-qanuni istismara məruz qalıb. O dövr üçün məlum olan 311 min ton çıxarılabilən mis ehtiyatının 218 min tonu, yəni 70 faizi qanunsuz şəkildə hasil edilib.

Hazırda qalıq ehtiyatların ilkin istismar dövrü 2025-2030-cu illəri əhatə edir. Bu müddətdə Çin Xalq Respublikasına 1,6 milyard manat dəyərində konsentrat şəklində 85 min ton mis metalının ixracı nəzərdə tutulur. Bununla belə, qarşıdakı illərdə mədənin mis ehtiyatlarının artırılması proqnozlaşdırılır. İlkin geoloji kəşfiyyat məlumatlarına əsasən, burada 470 min tona yaxın əlavə mis ehtiyatı mövcuddur. Aparılacaq 4 illik geoloji kəşfiyyat və





tədqiqat proqramı nəticəsində bu ehtiyatların çıxarılabilən həcmi dəqiqləşdiriləcək.

Kompleksdə ilkin mərhələdə 980 nəfər daimi işlə təmin olunub. Onlardan 260 nəfəri keçmiş məcburi köçkün, o cümlədən işğaldan azad edilmiş ərazilərə qayıdan vətəndaşlardır. Növbəti illərdə əksəriyyəti yerli icmaları təmsil edən vətəndaşlar üçün daimi iş yerlərinin sayının 1250-yə çatdırılması planlaşdırılır.

Mədəndə hasilat Azərbaycan ərazisində bir sıra filiz yataqlarının kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında "AzerGold" QSC ilə ABŞ-ın "R.V. Investment Group Services" şirkəti arasında 2024-cü ildə bağlanmış saziş üzrə əməliyyat şirkəti "Azerbaijan International Mining Company Limited" tərəfindən aparılır.

Prezident İlham Əliyev tərəfindən 2024-cü ildə təsdiq edilmiş Qanuna əsasən, hasilatın pay bölgüsü haqqında saziş üzrə dövləti təmsil etmək səlahiyyəti "AzerGold" QSC-yə həvalə edilib.

Layihə çərçivəsində ətraf mühitin mühafizəsi üzrə kompleks tədbirlər həyata keçirilib. İlkin vəziyyətin qiymətləndirilməsi və ekoloji monitorinqlər aparılıb, nəticələr əsasında Ətraf və Sosial Mühitə Təsirin Qiymətləndirilməsi sənədi hazırlanıb. Layihə müddətində toz və səs emissiyalarının azaldılması, torpaq və su resurslarının qorunması məqsədilə müvafiq monitorinq, laborator analizlər, yaşıllaşdırma işləri və suyun təkrar dövriyyə sistemləri tətbiq olunur. Həmçinin fəaliyyət dayandırıldıqdan sonra ərazilərin texniki və bioloji rekultivasiyası təmin ediləcək.

Bu layihənin icrası Azərbaycanda qeyri-neft sektorunun dayanıqlı inkişafının təmin olunması, ölkəmizin ixrac qabiliyyətinin artması, işğaldan azad edilmiş ərazilərdə təbii ehtiyatların səmərəli və qanuni istifadəsinin təmin olunması baxımından böyük əhəmiyyət kəsb edir. Eyni zamanda, özəl investisiyaların cəlbi regionda sənaye və dağmədən sahəsinin müasirləşdirilməsinə və şaxələndirilməsinə, iqtisadi fəallığın artırılmasına, yeni iş yerlərinin yaradılmasına da mühüm töhfə verir. İşğaldan azad olunmuş ərazilərdə sahibkarlığın dəstəklənməsi istiqamətində Azərbaycan dövləti tərəfindən çox vacib qərarlar qəbul olunub. Həmin ərazilərimizdə dayanıqlı məskunlaşmanın, özəl təşəbbüslərin stimullaşdırılması, investisiyaların cəlbi və əlverişli biznes mühitinin formalaşdırılması əsas strateji hədəflərdən biri kimi müəyyənləşdirilib. Qeyd edək ki, işğaldan azad olunmuş torpaqlarımızda fəaliyyət göstərən hüquqi və fiziki şəxslər mənfəət, gəlir, əmlak, torpaq və sadələşdirilmiş vergilərdən, həmçinin bu ərazilərdə rezidentlər tərəfindən iqtisadi fəaliyyət sahələri üzrə idxal olunan texnika, texnoloji avadanlıq və qurğular, xammal və materialların idxalı 2023-cü il yanvarın 1-dən 10 il müddətinə ƏDV və gömrük rüsumundan azaddır.

Prezident İlham Əliyev süxurların partladılması üçün rəmzi düyməni basıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Çıldıran kəndində görülmüş işlərlə tanış olub.

Dövlətimizin başçısına kənddə icra olunan işlər barədə məlumat verilib.

Qeyd edilib ki, Çıldıran Ağdərə rayonunun eyniadlı inzibati ərazi dairəsində, dağətəyi ərazidə yerləşir. İşğaldan əvvəl yerli əhalinin əsas məşğuliyyətini heyvandarlıq və bitkiçilik təşkil edib. Kənddə məktəb, mədəniyyət evi, kitabxana və tibb məntəqəsi fəaliyyət göstərib. Kəndin ərazisi tarixi abidələrlə zəngindir. Burada XII əsrə aid "Alban məbədi" və XIII əsrə aid "Qırmızı məbəd" memarlıq abidələri yerləşir. Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ilin sentyabrında həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində kəndin işğalına son qoyulub.

Kənddə 177 fərdi ev mövcuddur ki, onlardan da 69-u yararsız, 108-i isə qismən yararlıdır. İndiyədək 28 ev istismara hazır vəziyyətə gətirilib. Bu il daha 30 evin bərpası planlaşdırılır. Hazırda ilkin olaraq kəndə 13 ailə (48 nəfər) qayıdıb.

Çıldıran kəndində 2 mövcud transformator, elektrik və qaz xətləri bərpa edilib, yeni



elektrik, qaz və rabitə xətləri çəkilib. Bundan başqa, su nasosu istifadəyə verilib, ümumi həcmi 190 kubmetr olan su anbarları təmizlənib və subartezian quyusu təmir olunub, 8,4 kilometr uzunluğunda kənddaxili yollar bərpa edilib, park salınıb.

Sonra Prezident İlham Əliyev kəndə köçmüş Verdi Abdullayevin evinə baş çəkib. Dövlətimizin başçısı ailənin yaşayış şəraiti ilə maraqlanıb.

Ailə başçısı Verdi Abdullayev söhbət zamanı keçmiş məcburi köçkünlük həyatından, işğal dövründə dağıdılmış infrastrukturdan söz açıb.

Prezident İlham Əliyev keçmişin ağrılı günlərinin geridə qaldığını, artıq Ağdərədə əbədi və təhlükəsiz yaşayışın təmin edildiyini vurğulayıb, ailə üzvlərini yeni evlərinə köçmələri münasibətilə bir daha təbrik edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Aşağı Oratağ kəndində görülmüş işlərlə tanış olub.

Dövlətimizin başçısına



kənddə həyata keçirilmiş sosial layihələr barədə məlumat verilib.

Bildirilib ki, bu kənd Ağdərə rayonunun eyniadlı inzibati ərazi dairəsində, dağətəyi ərazidə yerləşir. İşğaldan əvvəl kəndin əhalisi əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq və tütünçülüklə məşğul olub, burada məktəb, klub, kitabxana və tibb məntəqəsi fəaliyyət göstərib. Aşağı Oratağ kəndi Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ildə həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində işğaldan azad olunub.

Kənddə ümumilikdə 308 fərdi ev var. Onlardan 148-i yararsız, 160-ı isə qismən yararlıdır. Hazırda 100 ev görülmüş bərpa işlərindən sonra istismara hazırdır. İl ərzində daha 60 ev əsaslı təmir və bərpa olunacaq. Kəndə ilkin olaraq 31 ailə (119 nəfər) qayıdıb.

Burada sosial infrastrukturla bağlı bir sıra işlər görülüb. Belə ki, 2 ədəd transformator və qaz xətti bərpa olunub, yeni elektrik, qaz və rabitə xətləri çəkilib, su nasosu istifadəyə verilib, ümumi həcmi 560 kubmetr olan su anbarları təmizlənib, subartezian quyusu təmir edilib. Uzunluğu 7 kilometrə yaxın kənddaxili yollar bərpa olunub. Sakinlərin istirahəti üçün park salınıb, futbol meydançası yaradılıb.

Sonra dövlətimizin başçısı kəndə köçmüş Anar Rüstəmovun ailəsinə baş çəkib, yeni evdə yaradılmış şəraitlə tanış olub.

Söhbət zamanı Prezident İlham Əliyev ailə üzvlərinin məşğulluq imkanları ilə maraqlanıb, onlara müasir infrastrukturla əhatə olunmuş doğma yurdda firavan və xoşbəxt həyat arzulayıb.

Ev sahibi Anar Rüstəmov dövlətimizin başçısına yaradılmış şəraitə görə minnətdarlığını bildirib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə şəhərinin Baş planı ilə tanış olub.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev dövlətimizin başçısına Ağdərənin Baş planı barədə məlumat verib.

Bildirilib ki, Baş plana əsasən şəhərin məskunlaşma ərazisi 444 hektardan 522 hektara çatdırılacaq. 20 illik perspektiv dövr üçün şəhər əhalisinin sayının 14 min nəfər olması proqnozlaşdırılır. Baş planın konseptual sxeminə şəhər mərkəzi, fərdi və azsıxlıqlı yaşayış sahələri, çoxfunksiyalı və ictimai-işgüzar zonalar daxildir. Bundan başqa, şəhərdə terras parkı, çayətrafı bulvar, aqroturizm, sənaye və logistika zonalarının yaradılması planlaşdırılır. Baş planla yanaşı, Ağdərə şəhərinin birinci mərhələdə yenidən qurulacaq ərazisi üzrə müfəssəl həllər də hazırlanıb.

**(Ardı 4-cü səhifədə)**

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Son 80 il ərzində Azərbaycan kimi tam və mütləq Qələbə qazanan ikinci ölkə olmayıb

**(Əvvəli 3-cü səhifədə)**

Şəhərin mənzil fondunun 420 min kvadratmetr olması, həmçinin 80 çarpayılıq xəstəxananın, 2520 şagird yerlik 5 məktəbin, 840 yerlik 5 uşaq bağçasının və peşə məktəbinin inşası planlaşdırılır. Birinci mərhələdə sahəsi 104 hektar olan şəhər mərkəzinin inkişaf etdirilməsi nəzərdə tutulur. 2030-cu ilədək şəhərdə 3590 nəfərin məskunlaşması mümkün olacaq. Burada yol və küçələrin uzunluğu 46,8 kilometr, velosiped zolaqlarının uzunluğu isə 10 kilometr təşkil edəcək. Layihə çərçivəsində ictimai və yaşayış binalarının memarlıq həlləri də işlənilib.

Baş planla tanış olan dövlətimizin başçısı müvafiq tapşırıq və göstərişlərini verib.

* * *

Ağdərə şəhərində Müdafiə Nazirliyinin hərbi qulluqçuları üçün nəzərdə tutulan yaşayış binaları da istismara verilib.





Bildirilib ki, Ağdərədə Müdafiə Nazirliyinin hərbi qulluqçuları üçün ümumilikdə 3 binada təmir-bərpa işləri görülüb. Dörd və beşmərtəbəli binalardakı 72 mənzildən 8-i birotaqlı, 36-sı ikiotaqlı, 24-ü üçotaqlı, 4-ü isə dördotaqlıdır. Burada hərbçilərin və onların ailə üzvlərinin yaşaması və asudə vaxtlarının səmərəli təşkili üçün bütün şərait yaradılıb. Mənzillər su, qaz, elektrik enerjisi, internet, həmçinin mebel dəstləri ilə təchiz edilib. Binaların ətrafında da geniş abadlıq işləri görülüb, yaşıllıqlar salınıb, sakinlərin istirahəti üçün guşələr yaradılıb.

Qeyd edək ki, bu gün Azərbaycan dövləti tərəfindən Milli Ordumuzun şəxsi heyətinin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülür. Son illər Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq, hərbi qulluqçuların mənzillə təmin olunması istiqamətində mühüm layihələr icra edilib. Bütün bunlar Müzəffər Ali Baş Komandan tərəfindən qalib Ordunun şəxsi heyətinə göstərilən yüksək qayğının bariz nümunəsidir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Aşağı Oratağ kəndində Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşüb.

Dövlətimizin başçısını salamlayan **qadın sakin** deyib: Sənin boyuna qurban, canım sənin boyuna qurban.

**Prezident İlham Əliyev:** Sağ olun. Necəsiniz? Necə yerləşmisiniz burada?

**Sakinlər:** Yaxşı.

**Prezident İlham Əliyev:** Yaxşıdır hər şey?

**Sakinlər:** Yaxşıdır.

**Prezident İlham Əliyev:** Allaha şükür. Təbrik edirəm sizi.

**Sakinlər:** Sağ olun.

**Prezident İlham Əliyev:** Artıq üç gündür ki, Ağdərə rayonunun dörd kəndinə yerləşmisiniz. Bu münasibətlə sizi təbrik edirəm.

**Sakinlər:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Bütün bu kəndlərdə olmuşam: Çapar, Heyvalı, Çıldıran və Aşağı Oratağ kəndləri. Evlər gözəl təmir olunub, bərpa edilib. Son iki il ərzində bu işğaldan azad edilmiş Ağdərə rayonunun bütün qəsəbələrində, kəndlərində monitorinq aparmışıq. Birinci mərhələdə bərpa olunan kəndləri müəyyən etmişik və artıq Ağdərə rayonunun doqquz kəndinə keçmiş köçkünlər qayıtmışlar.

**Sakinlər**: Çox sağ olun.

**Prezident İlham Əliyev:** Uzun illərin həsrəti arxada qaldı, haqq-ədalət Zəfər çaldı. Azərbaycan öz ərazi bütövlüyünü, suverenliyini bərpa etdi. Azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıdıblar və burada qürurla yaşayacaqlar, xoşbəxt yaşayacaqlar, rahat yaşayacaqlar. Əminəm ki, bundan sonra müharibə olmayacaq. Azərbaycan dövləti güclü dövlətdir.

**Kişi sakin:** Sizin sayənizdə, cənab Prezident.

**Prezident İlham Əliyev:** Bizi güclü edən xalqımızdır, yumruq kimi birləşən millətimdir.

**Sakinlər:** Qarabağ Azərbaycandır!

**Prezident İlham Əliyev:** Son iki il ərzində, - antiterror əməliyyatından sonra, - 2023-cü ildən bu yana bütün bu bölgələrdə - Ağdərədə, Xocalıda, Xankəndidə, Xocavənddə həyat bərpa edilir. Beş il bundan əvvəl isə vaxtilə işğal altında olmuş digər ərazilərə köçkünlər qayıtmağa başlayıblar. Bu gün artıq 73 min insan - həm keçmiş köçkün, həm də ki, köçkün olmayan, amma azad edilmiş ərazilərdə işləyənlər, çalışanlar, oxuyanlar yerləşiblər və hər ay Qarabağa qayıdan vətəndaşların sayı artır. Burada şərait yaradılıb - işıq, su, qaz, yollar, iş yerləri.

Bu gün Qozlukörpü kəndində təxminən 15 meqavat gücündə su elektrik stansiyasının açılışını qeyd etdik. Bu bölgə elektriklə tam təmin edilib. Hətta burada istehsal olunan enerji Azərbaycanın digər bölgələrinə də ötürülür. Yollar çəkilir. Buradan Tərtərə qədər, Kəlbəcərə qədər yollar tikilir, genişlənir. Bu gün "Dəmirli" Filiz Emalı Kompleksinin fəaliyyəti ilə də tanış oldum. Orada 1000-ə yaxın iş yeri yaradılır. Yəni, iş yerləri ilə bağlı heç bir problem olmayacaq. Həm dövlət, həm özəl sektor tərəfindən şərait yaradılır. Eyni zamanda, bu gözəl, səfalı, mənzərəli təbiətdən istifadə edərək əkinçilik, heyvandarlıq, arıçılıq, meyvəçilik - bütün bu işlərlə mütləq məşğul olmaq lazımdır ki, siz burada rahat, firavan yaşayasınız.




**Kişi sakin:** Bu gün üçün Sizə çox-çox təşəkkür edirik. Siz dünyaya sübut etdiniz ki, Qarabağ Azərbaycandır! Sağ olun, var olun.

**Qadın sakin:** Mən Ağdərənin Çapar kəndindənəm. Mən bir şəhidin anasıyam, bir şəhidin də bacısıyam.

**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin.

**Qadın sakin:** Bu gün mənim yanımda ikinci bir oğlum yoxdur. Azərbaycanın qeyrətli oğlanları mənim oğlumdur. Oğlum məni Sizə əmanət edib. Mən Azərbaycanın bütün şəhid anaları adından Sizə "Qarabağın qəhrəman oğlu" deyirəm.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Qadın sakin:** Siz də bizim ata yurdumuza, şəhidlərin qanı qədər, haqqı qədər müqəddəs olan Qarabağa, Ağdərəyə xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Sağ olun. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qanı, canı bahasına, qəhrəman döyüşçülərimizin şücaəti, rəşadəti hesabına biz bu gün bu torpaqlardayıq. Biz şəhidlərimizin əziz xatirəsini qəlbimizdə əbədi yaşadacağıq. Onu da bildirməliyəm ki, şəhidlərimizin qanını artıq biz döyüş meydanında aldıq. Onların qanı yerdə qalmayıb. İşğal dövründə dəfələrlə bu sözləri biz eşitmişik, işlətmişik və bu arzularla yaşamışıq. Çünki torpaqların itirilməsi, böyük sayda şəhidlərin şəhadətə ucalması - bütün bu ədalətsizliklər bizi xalq olaraq çox incidirdi, ancaq bizi sarsıtmadı. Biz əyilmədik, iradəmizi göstərdik və döyüş meydanında həm şəhidlərimizin qisasını aldıq, həm də torpaqlarımızı qaytardıq. Son 80 il ərzində Azərbaycan kimi tam və mütləq Qələbə qazanan ikinci ölkə olmayıb. Müharibələr olub, münaqişələr olub, bu gün də davam edir. Amma heç biri tam və mütləq Qələbə ilə nəticələnməyib. Ancaq biz böyük xalq olaraq buna nail olduq, özü də cəmi 44 gün ərzində. Ondan sonra da bir gün ərzində. Biz şanlı Zəfərimizi, Zəfər yürüşümüzü iki mərhələyə bölərək həm də cavanlarımızı qoruduq. Çünki əgər 2020-ci il noyabrın 10-da müharibə dayanmasaydı, bəlkə də minlərlə şəhid verməli olacaqdıq. O cümlədən bax burada, bu dağlarda, Ağdərə dağlarında, Kəlbəcər dağlarında, Laçın dağlarında, Ağdamın minalanmış zolaqlarında minlərlə şəhid verə bilərdik. Biz onları qoruduq, onları qurban vermədik. Ancaq bilirdik ki, gün gələcək və biz bütün Qarabağı qaytaracağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik, mənfur düşməni torpaqlarımızdan qovacağıq və tam Qələbə qazanacağıq.



İndi də burada, - bir tərəfdə şəhid anası, bir tərəfdə ağbirçək, - sizinlə bərabər durmuşuq. Bu, çox xoşbəxt bir hissdir, xoşbəxt bir gündür, gözəl bir gündür. Sizi ürəkdən təbrik edirəm, burada xoşbəxt yaşayın. Sağ olun.

**Sakinlər:** Allah Sizi qorusun!

* * *

Sonra foto çəkdirilib.

* * *

**Kişi sakin:** Cənab Prezident, Allahdan Sizə uzun ömür, cansağlığı arzu edirik. Həmişə bizim yanımızda olmusan, biz də sənin arxanda.

**Digər kişi sakin:** Allah o "dəmir yumruğ"u düşmənlərimizin başının üstündən əskik etməsin. Amin. "Dəmir yumruq", "Qarabağ Azərbaycandır!"

**Qadın sakin:** Mənim ən böyük sevincim Vətənimə qayıtmaq olsa da, həyatda ən böyük arzum cənab Prezidentlə görüşmək idi. Getdiyim bütün yerlərdə deyirdim ki, bir gün mənim əlim o kişiyə çatacaq. Mənim əlim çatdı. Ən böyük sevincim, cənab Prezidentlə görüşməkdir.

**Kişi sakin:** Çox sağ olun. Allah Sizi qorusun.

**Qadın sakin:** Çox istərdim ki, gələcəkdə bir dəfə də Ağdərədə, Çaparda mənim evimin qonağı olasınız. Allahım Sizi qorusun. Amin.

**(Ardı 5-ci səhifədə)**

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Son 80 il ərzində Azərbaycan kimi tam və mütləq Qələbə qazanan ikinci ölkə olmayıb

(Əvvəli 4-cü səhifədə)

**Prezident İlham Əliyev:** Gələrik, əlbəttə, hələ çox görüşəcəyik. Bu gün Ağdərə şəhərinin təzə Baş planı mənə təqdim ediləcək. Ağdərə şəhərini də biz yenidən quracağıq, necə ki, artıq doqquz kəndi abadlaşdırmışıq. Şəhəri də quracağıq. Bura çox gözəl bir sənaye və turizm mərkəzi olacaq. Bu səfalı yerlər göz oxşayır. Hər tərəf dağ, meşə, gözəl hava, bulaqlar, çaylar. Ona görə Ağdərənin gələcək inkişafı çox parlaq olacaq. İşğalçılar bu ərazidə faktiki olaraq heç bir salamat bina qoymayıblar. Bax, təmir edilmiş bütün bu binalar bu gün dövlət tərəfindən təmir edilib. Ancaq talançılıqla məşğul olublar. "Dəmirli" filiz yatağından bəlkə 2 milyard dollar dəyərində, bəlkə də çox mis aparıblar. Bu, talançılıqdır, qanunsuz istismardır. İndi biz qayıtmışıq, orada işlər qurulub.



Qeyd etdiyim kimi, orada 900-dən çox, təqribən 1000-ə qədər iş yeri yaradılacaq. Özü də tapşırıq vermişəm ki, oraya cəlb olunacaq vətəndaşlar bu bölgədə yaşayan vətəndaşlar olmalıdır. İndi oranı genişləndirmək üçün mütləq ela- və sərmayə də qoyulacaq.

Kənd təsərrüfatı, turizm - yəni, bura təbii bir cənnətdir. Amma mənfur düşmən buranı viran qoyub, burada daşı daş üstə qoymayıb. Onlar hər il erməni təşkilatları tərəfindən 100 milyonlarla pul yığırdılar. Onların bir manatını da, bir dollarını da buraya qoymayıblar, hamısını talayıblar. Bizim evlərimizi yandırıblar, sizi didərgin salıblar, 1 milyon insanı didərgin salıblar, Ağdamı yerlə-yeksan ediblər, Füzulini də, Zəngilanı da, Qubadlını da. Kəlbəcərdə, Laçında, Xocalıda qanunsuz məskunlaşmışdılar. Xocalıya bir eybəcər ad da vermişdilər, amma heç biri tutmadı. Çünki bu torpaqların sahibləri bizik, biz gəlmişik və biz qurub-yaradırıq.

**Qadın sakin:** Bütün bunlar Sizin güclü siyasətinizin nəticəsidir, cənab Prezident. Allah ömrünü uzun eləsin.



**Prezident İlham Əliyev:** Sağ olun. Bundan sonra ancaq müzəffər xalq kimi, qürurlu xalq kimi yaşayacağıq. İnşallah.

**Sakinlər:** Cənab Prezident, Siz dünyada Azərbaycan xalqının fəxrisiniz, minnətdarıq. Sağ olun, Sizi görməyimizə şad olduq.

* * *

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunda Xüsusi Əməliyyat Mərkəzinin təməlini qoyub.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verib.

Dövlətimizin başçısına məlumat verilib ki, bu mərkəzin yaradılmasında məqsəd xüsusi təyinatlı bölmələrin müxtəlif ərazi, relyef və hava şəraitində hazırlıqlarının təmin edilməsi, həmçinin beynəlxalq hərbi əməkdaşlıq sazişləri əsasında tədbirlərin, o cümlədən təlimlərin, kursların keçirilməsidir. Mərkəzin geniş ərazisində çoxsaylı şəxsi heyətin iştirakı ilə təlim və məşqlərin keçirilməsi mümkün olacaq. Burada təlim sahələri, o cümlədən atıcı və iriçaplı silahların atış, pilotsuz uçuş aparatlarının, o cümlədən zərbə dronlarının, müxtəlif simulyasiya, xüsusi əməliyyatların, sürücülük, üzgüçülük hazırlıqlarının məşq sahələri yaradılacaq.

Mərkəzdə qərargah, yataqxana, tibb məntəqəsi, klub, tədris və qonaq evləri, qapalı idman kompleksi, simulyasiya mərkəzi, açıq idman sahələri, helikopter meydançası, atıcılıq poliqonları və digər zəruri infrastruktur olacaq.

Prezident İlham Əliyev mərkəzin təməlini qoyub.

**AZƏRTAC-ın materialları əsasında**



## “N” hərbi hissəsində taktiki təlim keçirilib



2026-cı il üçün hazırlıq planına uyğun olaraq, “N” hərbi hissəsinin taktiki təlimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, səhra şəraitində açılan komanda idarəetmə məntəqəsində bölmələrin tapşırıqların icrası ilə bağlı fəaliyyətləri xəritə üzərində dəqiqləşdirilib, komandirlərin qəbul edilmiş qərarlara dair məruzələri dinlənilib.

Təlimin keçirilməsində əsas diqqət komandir heyətinin çevik qərar qəbuletmə bacarıqlarının, qərargahların qarşılıqlı fəaliyyətinin, eləcə də bölmələrin döyüş qabiliyyətinin daha da yüksəldilməsinə, şəxsi heyətin səhra və praktiki vərdişlərinin inkişaf etdirilməsinə yönəldilib.



*Tibb xidməti*

# Müqəddəs peşənin sahibləri

(Əvvəli 1-ci səhifədə)

"N" hərbi hissəsinin tibb məntəqəsindəki səliqə-sahman, təmizlik, heyətin nizam-intizamı diqqətimizi cəlb etdi. Qəbul otağında əsgər Riyad Abdullayev baş çavuş Hikmət Nəsibov tərəfindən müayinə olunurdu. Əsgərimizin hərarəti yoxlandıqdan sonra onun təzyiqi ölçüldü. Daha sonra müvafiq qeydlər aparıldı.

Prosedur zamanı tibb xidməti leytenantı Nazim Babazadə bildirdi ki, məntəqəyə müraciət edən xəstələrə düzgün diaqnoz qoymaq ən başlıca amillərdəndir. "Çünki sonrakı müayinə prosesi ilk diaqnozdan asılıdır. Məntəqəyə daxil olan xəstələrdən analizlər götürülür, müayinələr aparılır və onlar nəticəyə uyğun olaraq müalicə olunurlar. Peşəkar personalın səyi nəticəsində biz əsgərlərimizin qayğısına qalır, dərman ləvazimatlarının təyinatı üzrə vaxtında verilməsinə, həmçinin sarğıların dəyişdirilməsinə ciddi məsuliyyətlə yanaşırıq. Məqsədimiz tibb məntəqəsinə müraciət edən Vətən müdafiəçilərini qısa zaman ərzində sağaldıb yenidən xidməti yerlərinə göndərməkdir".



Söhbətinə davam edən N.Babazadə qeyd etdi ki, burada yalnız əsgərləri müayinə və müalicə etməklə kifayətlənmir, həm də mövsümi xəstəliklərin qarşısının alınması məqsədilə bölmələrdə profilaktik tədbirlər də həyata keçirilir.

Tibb xidməti leytenantı N.Babazadə müraciət edən xəstələrin müayinə və müalicələrinin yüksək səviyyədə aparılması və sağlamlıqlarının yenidən bərpa edilməsi üçün məntəqədə mövcud olan aptekdə lazımi dərman ləvazimatlarının da yetərincə olduğunu bildirdi. Dərman preparatlarının saxlanma qaydalarına xüsusi diqqət yetirildiyini, saxlama müddəti bitənlərin yeniləri ilə əvəz olunduğunu vurğuladı.

"Vətənimizin keşiyində dayanan, mərd əsgərlərimizin keşiyində dayandığımız üçün qürurluyuq. Sevincliyik ki, bu gün biz iki müqəddəs peşənin sahibləriyik. Həm Vətənimizi qoruyur, həm də torpaqlarımızın müdafiəsində duran hərbi qulluqçularımızın sağlamlığının qayğısına qalırıq", - tibb xidməti leytenantı Nazim Babazadə dedi.

Müşahidəmiz onu deməyə əsas verir ki, tibbi personal öz işini sevir, hər biri bu peşənin nə qədər məsuliyyətli olduğunu dərindən başa düşür.

Daha sonra tibb məntəqəsinə müraciət edən digər əsgər Azər Babayevin də fikirlərini öyrəndik. O da öz növbəsində bütün tibbi personala göstərilən yüksək diqqət və qayğıya görə dərin minnətdarlığını bildirdi: "Burada xidmət edən həkimlərimiz bizə qayğıkeş və mehriban münasibət göstərirlər. Onların səyi nəticəsində qısa zamanda sağlamlığımızı bərpa edib, xidmətimizi davam etdiririk".

Beləliklə, tibbi personalın peşəkarlığı və məntəqənin müasir avadanlıqlarla təchiz olunması hərbçilərimizin sağlamlığında mühüm rol oynayır. Burada müraciət edən xəstələrə yüksək səviyyəli xidmət göstərilir. Bir daha əmin olduq ki, hərbçi həkimlərimizin sayəsində Vətən müdafiəçilərimizin səhhətində heç bir narahatlıq ola bilməz.

**Baş leytenant Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

# Ordu və idmanın vəhdəti: MOİK-in peşəkar fəaliyyət modeli

Azərbaycan Ordusunun gücü yalnız döyüş meydanında deyil, eyni zamanda, fiziki hazırlıq, mənəvi dayanıqlıq və sağlam həyat tərzinin təşviqi sahəsində də özünü göstərir. Bu istiqamətdə Mərkəzi Ordu İdman Klubu (MOİK) ordumuzda idman siyasətini həyata keçirən, ordu ilə idmanı vahid sistemdə birləşdirən aparıcı qurumlardan biri kimi çıxış edir. Klubun fəaliyyəti hərbi qulluqçuların fiziki hazırlığının yüksəldilməsinə, vətənpərvərlik ruhunun möhkəmləndirilməsinə və Azərbaycan Ordusunun beynəlxalq idman nüfuzunun artırılmasına xidmət edir.



### Yaranma tarixi və formalaşan ənənələr

Mərkəzi Ordu İdman Klubu 1961-ci ildə yaradılıb. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra klub Müdafiə Nazirliyinin strukturuna daxil edilib, fəaliyyətini milli maraqlara uyğun şəkildə yenidən qurub. Bu dövrdən etibarən MOİK yalnız idman nailiyyətləri qazanan bir qurum kimi deyil, eyni zamanda, ordu-idman ənənələrinin qorunduğu və inkişaf etdirildiyi strateji mərkəz kimi də formalaşıb.

Hazırda klubun bazasında cüdo, sərbəst və yunan-Roma güləşi, boks, ağır atletika, pauerliftinq və stolüstü tennis üzrə bölmələr fəaliyyət göstərir. Bununla yanaşı, futbol, voleybol və basketbol komandaları ölkənin müxtəlif idman liqalarında uğurla çıxış edirlər. Bu faktlar Mərkəzi Ordu İdman Klubunun çoxşaxəli və sistemli fəaliyyətinin bariz göstəricisidir.



### Beynəlxalq Hərbi İdman Şurası ilə əməkdaşlıq

Mərkəzi Ordu İdman Klubu 1995-ci ildən etibarən Beynəlxalq Hərbi İdman Şurasının (CISM) üzvüdür. 1948-ci ildə yaradılmış bu nüfuzlu təşkilat "İdman vasitəsilə dostluq" şüarı altında hərbi qulluqçular arasında sülhün, qarşılıqlı anlaşmanın və əməkdaşlığın möhkəmləndirilməsini əsas məqsəd kimi müəyyən edib.

Azərbaycan Ordusunun idmançıları CISM xətti ilə keçirilən Dünya Hərbi Yay Oyunlarında mütəmadi olaraq iştirak edib, bu yarışlarda ümumilikdə 39 medal qazanıblar.

Əldə olunan nəticələr ordumuzun idman sahəsində yüksək hazırlıq səviyyəsini və beynəlxalq arenada artan nüfuzunu nümayiş etdirir.

### Azərbaycanın ev sahibliyi etdiyi mötəbər yarışlar

Azərbaycan son illərdə hərbi-idman sahəsində beynəlxalq tədbirlərin etibarlı ev sahibi kimi tanınır. Bakıda keçirilmiş hərbçilər arasında dünya çempionatları ölkəmizin idman infrastrukturunun və təşkilatçılıq imkanlarının yüksək səviyyədə olduğunu sübut edib.

Xüsusilə, 2023-cü ildə Bakıda təşkil olunan hərbçilər arasında güləş üzrə 36-cı dünya çempionatı yadda qalan hadisələrdən biri olub. Bu mötəbər yarışda Azərbaycan güləşçiləri 21 medal qazanaraq böyük uğurlara imza atıblar. Belə tədbirlər Azərbaycanın beynəlxalq hərbi-idman mühitində mövqeyini daha da möhkəmləndirir.

### Olimpiya zirvələrinə aparan yol

Mərkəzi Ordu İdman Klubunun yetirmələri Olimpiya Oyunlarında da Azərbaycan idman tarixində silinməz iz qoyublar. 1992-ci il Barselona Olimpiya Oyunlarında Valeri Belenkinin qazandığı qızıl və bürünc medallar, eləcə də Sidney, Afina və Pekin Olimpiya Oyunlarında əldə edilən nəticələr klubun sistemli hazırlıq modelinin real bəhrəsidir. Bu nailiyyətlər təkcə fərdi idmançıların uğuru deyil, eyni zamanda, illər boyu formalaşdırılmış peşəkar məşqçi heyətinin, düzgün idarəetmənin və dövlət qayğısının məntiqi nəticəsidir.



### Əsgər-idmançı modeli - unikal yanaşma

Mərkəzi Ordu İdman Klubunun fəaliyyətində əsgər-idmançı modeli xüsusi yer tutur. Bu model peşəkar idmançıların hərbi xidmət dövründə idman fəaliyyətlərini davam etdirməsinə imkan yaradır. Nəticədə idmançıların karyerasında fasilə yaranmır, əksinə, onların fiziki və mənəvi hazırlığı daha da möhkəmlənir. Bu yanaşma həm Silahlı Qüvvələrin idman potensialını artırır, həm də beynəlxalq yarışlarda Azərbaycan Ordusunun layiqincə təmsil olunmasını təmin edir.

### Gələcəyə baxış

Bu gün Mərkəzi Ordu İdman Klubu təkcə keçmiş nailiyyətləri ilə deyil, gələcəyə yönəlmiş inkişaf strategiyası ilə də seçilir. Klubda fəaliyyət göstərən yüksək ixtisaslı məşqçi və mütəxəssis heyəti milli yığma komandaların hazırlanmasında fəal iştirak edirlər.

Eyni zamanda, klubumuzda yetişən yeniyetmə idmançıların MOİK-i təmsil edərək əldə etdikləri uğurlar onların gələcəkdə bu klubda hərbi xidmət keçmələri üçün real imkanlar yaradır. Bu idmançıların sonradan Mərkəzi Ordu İdman Klubunda zabit kimi xidmət etmələri isə klubun əsas inkişaf fəlsəfəsini təşkil edir.

MOİK-in digər idman klublarından əsas fərqi ondan ibarətdir ki, gənc yaşlarından etibarən burada idman fəaliyyətinə başlayan idmançılar öz həyatlarını həm Azərbaycan Ordusuna, həm də idmana həsr edərək bu iki dəyəri vahid bir məqsəddə birləşdirə bilirlər.

Davamlılıq və varislik prinsiplərinə əsaslanan bu model klubun uzunmüddətli uğurlarını təmin edən əsas amillərdəndir.



**Sözardı:** Mərkəzi Ordu İdman Klubu Azərbaycan Ordusunun gücünü idman meydanlarında nümayiş etdirən dövlətə və orduya sədaqətin parlaq nümunəsi olan bir qurumdur. Klubun fəaliyyəti sağlam nəslin yetişdirilməsinə, idman ənənələrinin qorunmasına və Azərbaycanın beynəlxalq hərbi-idman nüfuzunun daha da yüksəldilməsinə xidmət edir.

Bu gün MOİK keçmişin zəngin irsi, real nailiyyətləri və gələcəyə hesablanmış inkişaf modeli ilə Azərbaycan Ordusunun qürur mənbələrindən biri kimi fəaliyyətini uğurla davam etdirir.

**Kapitan
Fuad CƏFƏROV
"Azərbaycan Ordusu"**

## "Vətən müharibəsi ordumuzun qəhrəmanlığı ilə yanaşı, həm də humanizmini nümayiş etdirdi"

*44 günlük Vətən müharibəsi Azərbaycan Silahlı Qüvvələrinin qəhrəmanlığı ilə yanaşı, həm də onun humanizmini nümayiş etdirdi.*

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov bu barədə AZƏRTAC-a verdiyi açıqlamada bildirib.

Polkovnik qeyd edib ki, müharibə zamanı Azərbaycan Ordusu bir sıra üstün keyfiyyətlər nümayiş etdirib: "Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri Vətən müharibəsi zamanı hətta dünyanın ən güclü ordularında heyrət doğuran misilsiz qəhrəmanlıqlar, qeyri-adi döyüşkənlik bacarığı göstərdi. Buna uzun illər "keçilməz sədd" adlandırılan və möhkəmləndirilmiş bunkerlərin dağıdılması, Şuşa şəhərinin yalın əl və yüngül atıcı silahlarla azad edilməsi, minalanmış, müxtəlif əngəllər və çoxsaylı istehkamlarla möhkəmləndirilmiş müdafiə zolaqlarının böyük sürətlə yarılması və s. Azərbaycan əsgərinin qarşısıalınmaz olduğunu sübut etdi. Bununla yanaşı, müharibə həm də onu sübut etdi ki, Azərbaycan Ordusu qəhrəman olduğu qədər də humanistdir. O, lüzumsuz zorakılığa, gərəksiz şiddətə yol vermir. Qəhrəmanlıqla yanaşı, mərhəmət göstərməyi, rəhm etməyi də bacarır. Azərbaycan Ordusu müharibənin davam etdiyi günlərdə bir nəfər də olsun mülki erməni hədəfə almadı".

Cəlil Xəlilov yeni ilin ilk günlərində dövlətimizin başçısının yerli telekanallara verdiyi müsahibədə Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsindəki humanizminə diqqət çəkdiyini vurğulayaraq deyib: "Müzəffər Ali Baş Komandan bildirdi ki, istər 2020-ci, istərsə də 2023-cü ildə Azərbaycan Ermənistan şəhərlərini Ağdamın vəziyyətinə qoya bilərdi. Lakin Azərbaycan bunu nahaq iş hesab etdiyi, habelə, sülh istədiyi, müharibəni dayandırmaq niyyətində olduğu üçün bunu etmədi. Bu fakt bir daha Azərbaycan Ordusunun, onun Müzəffər Ali Baş Komandanının nə qədər humanist olduğunu, müharibə zamanı belə, sülhə xidmət etdiyini göstərir. Həmin fakt onu deməyə əsas verir ki, dünya Azərbaycan Ordusunun müharibə təcrübəsi ilə yanaşı, həm də humanizmini öyrənməli, bundan lazımi nəticələr çıxarmalıdır".

*Görkəmli şəxsiyyətlər*

# Kəşfiyyatçı polkovnik İrza bəy Hacıbəylinski

**(Əvvəli 1-ci səhifədə)**



O, 15 mart 1902-ci ildə "poruçik", 1 sentyabr 1905-ci ildə "ştabs-rotmistr", 25 aprel 1912-ci ildə "rotmistr" rütbəsinə yüksəlib.

Birinci Dünya müharibəsində iştirak edən İrza bəy Hacıbəylinski 23 oktyabr 1914-cü ildə döyüşlərdə yaralanıb. Döyüşlər zamanı fərqləndiyinə görə üzərində "İgidliyə görə" yazısı olan 4-cü dərəcəli "Müqəddəs Anna" və 3-cü dərəcəli "Müqəddəs Anna" (qılıncla birgə) ordeninə layiq görülüb. 1915-ci ildə iki dəfə - 12 mart və 31 avqust tarixlərində kontuziya alıb. 1915-ci ildə hərbi xidmətdə fərqləndiyinə görə İrza bəy Hacıbəylinski 2-ci dərəcəli "Müqəddəs Anna" (qılıncla birgə) və 2-ci dərəcəli "Müqəddəs Stanislav" (qılıncla birgə) ordeni ilə təltif edilib. 20 iyul 1916-cı ildə "podpolkovnik" rütbəsinə yüksəlib. 31 avqust 1916-cı ildə İrza bəy Hacıbəylinski Qafqaz Ordusunun etap-nəqliyyat bölməsinin rəisi yanında tapşırıqlar üzrə qərargah zabiti təyin edilib.

1918-ci ildən podpolkovnik İrza bəy Hacıbəylinski Zaqafqaziya Komissarlığının qərarı ilə yeni yaradılan Müsəlman Korpusunda (26 iyun tarixindən Əlahiddə Azərbaycan Korpusu) xidmət edib.

"Polkovnik" rütbəsinə yüksələn İrza bəy 1-ci Qarayazı Süvari Alayına komandan təyin edilib.

1918-ci ilin iyulun əvvəlində korpus ləğv edilib, onun hissə və bölmələri Türkiyədən gələn 5-ci Qafqaz və 15-ci Çanaqqala türk diviziyaları ilə birlikdə Nuru Paşanın rəhbərliyi ilə yeni yaradılan Qafqaz İslam Ordusunun tərkibinə keçirilib. Polkovnik İ.Hacıbəylinski 1918-ci ilin payızına qədər 1-ci Qarayazı Süvari Alayına, noyabr ayından isə 1-ci Tatar Süvari Alayına komandanlıq edib.

O, Nuru Paşa ilə birgə Qafqaz İslam Ordusunun tərkibində Bakının azad edilməsinin fəal iştirakçılarından biri kimi tarixə düşüb. 1918-1920-ci illərdə Milli Ordunun formalaşmasında polkovnik İrza bəy Hacıbəylinskinin müstəsna rolu olub.

17 sentyabr 1919-cu ildə Bakı Möhkəmləndirilmiş Müdafiə Rayonunun qərargah rəisi təyin edilib. Hərbi nazir general Səməd bəy Mehmandarovun 2 mart 1920-ci il tarixli 128 nömrəli əmri ilə polkovnik İ.Hacıbəylinski 1 mart 1920-ci ildə Azərbaycan Ordusunun Baş Qərargahının general-kvartirmeyster idarəsinin əməliyyat-kəşfiyyat bölməsinin rəisi təyin edilib. 3 aprel 1920-ci ildə polkovnik İ.Hacıbəylinski hərbi şöbə rəisi qismində Könüllü Ordunun tərk-silah edilmiş hissələrinin əmlakının qəbulu üzrə idarələrarası komissiyasının tərkibinə daxil edilib.

İrza bəy Hacıbəylinski Azərbaycan Xalq Cümhuriyyətinin bolşeviklər tərəfindən süqutundan sonra 14 yanvar 1938-ci ildə repressiyaya məruz qalaraq güllələnib.

O, tanınmış Azərbaycan yazıçısı və maarifçisi Mirzə Fətəli Axundovun nəvəsi, şahzadə Aliyə Soltan xanım Qacarla (1889-1943) ailə həyatı qurub. Aliyə Soltan xanım şahzadə Bəhmən Mirzənin oğlu, polkovnik Xanbaba Xan Qacarın və Nisə xanım Axundovanın qızı idi. İrza bəy Hacıbəylinski ilə Aliyə Soltan xanım Qacarın Kamil Hacıbəylinski (1919-1973) adlı oğlu olub.

**"Azərbaycan Ordusu"**

## "Milli müdafiə sənayesinin inkişafı Azərbaycan Ordusunun hərbi-texniki imkanlarının gücləndirilməsinə töhfə verir"

Azərbaycanın Vətən müharibəsindəki Qələbəsini, ümumiyyətlə, ərazi bütövlüyümüzün, suverenliyimizin bərpası prosesini dövlət sisteminin səhvsiz, mərhələli şəkildə yüksək səviyyədə işləməsi, aparılan düzgün xarici siyasət, hərbi və hərbi-texniki məsələlərin həll olunması təmin etdi. Son 5 ildə isə, yəni, Qələbədən sonra Azərbaycan, əlbəttə ki, arxayınlaşmadı. Faktiki olaraq Vətən müharibəsindən sonra da Azərbaycan Ordusunun texniki imkanlarının, döyüş hazırlığının artırılması istiqamətində addımlar atıldı. Diplomatiyanın uğuru isə Ermənistanın Qarabağı Azərbaycan ərazisi kimi tanıması, ardınca isə həmin məsələnin Amerika Birləşmiş Ştatlarında tam təsdiqlənməsi, rəsmiləşməsi, paraflanması idi. Hesab edirəm ki, bütün bunların əsas səbəblərindən biri xalqın dövlətə inamı və bu istiqamətdə dövlət sisteminin yanında olması idi.

Bunu AZƏRTAC-a açıqlamasında Xəzər Müdafiə Tədqiqatları Mərkəzinin rəhbəri, hərbi ekspert Ramil Məmmədli deyib.

O bildirib ki, ordunun maddi-texniki bazasının, hərbi-texniki imkanlarının gücləndirilməsinə, döyüş hazırlığının artırılmasına milli müdafiə sənayesinin inkişafı da öz töhfəsini verir: "Bu gün Azərbaycan müdafiə sənayesi kompleksi, Müdafiə Sənayesi Nazirliyinin tərkibində olan strukturlar ordumuzu zəruri olan məhsullarla təmin edən bir sistemdir, bir sənaye sektorudur. Həmin proses daha da böyüyür. Əlbəttə ki, ölkələrin milli təhlükəsizlik məsələlərinin əsas amillərindən biri də müdafiə sənayesi sektorunun milliləşməsidir. Yəni, vacib olan məhsulların Azərbaycanda istehsalını təmin etməkdir. Bu istiqamətdə dövlətimizin başçısının proseslərdə birbaşa iştirakı, yəni, diqqəti əhəmiyyətli məsələlərdən biridir. Proses təbii seçmə yolu ilə deyil, birbaşa dövlət nəzarəti, dövlətin maddi və digər inzibati resurslarının iştirakı ilə həyata keçirilir. Bu gün Azərbaycan Ordusu atıcı silahlarla, kiçik və iriçaplı mərmilərlə, patronlarla ölkənin yerli müəssisələri vasitəsilə təmin olunur. Bu isə böyük uğurdur və biz vaxtilə bunu ancaq arzu edirdik. Azərbaycan, nəinki bu gün həmin məhsulları öz ordusu üçün istehsal edir, həm də onları ixrac edən ölkəyə çevrilir. Azərbaycan Ordusu vaxtilə öyrənən ordu idi, yəni, beynəlxalq təcrübələri mənimsəyirdi, bu gün isə artıq öyrədən orduya çevrilib. Bu baxımdan, Azərbaycan artıq xarici ölkələrə öz məhsullarını ixrac edir, həmin məhsulların həcmi getdikcə artır. Satışın, ixracın artan səbəblərindən biri odur ki, Azərbaycan məhsuluna tələbat getdikcə artır. Bu, əslində, Azərbaycanın qeyri-neft sektorunun inkişafı baxımından böyük nailiyyətdir. Düşünürəm ki, müdafiə sənayesi məhz Azərbaycanın bu istiqamətdə uğurlarını təmin edə biləcək. Müdafiə sənayesi sektorunda artıq müasir elmi nəzəri bazalar əsasında silah və hərbi texnologiyaların yaradılması prosesi həyata keçirilir. Artıq bəziləri yaradılıb və bu istiqamətdə müəyyən işlər görülüb. Düşünürəm ki, həmin proses daha da güclənəcək və Azərbaycan dünyanın müdafiə sənayesi sahəsində ən inkişaf etmiş ölkələrindən birinə çevriləcək. Əlbəttə ki, bu, Azərbaycanın yeni müharibəyə hazırlaşması ilə bağlı deyil. Necə deyərlər, silah varsa, sülh də var. Güclü olmalısan ki, ölkənin vətəndaşları sülh və əmin-amanlıq içində yaşaya bilsinlər".



*Tikdim ki, izim qala...*

# Dağların köksündəki heyrətamiz Pəri qalası

**(Əvvəli 1-ci səhifədə)**

Əlçatmaz dağ zirvəsində tikilən, Alban memarlığının ən təkrarolunmaz nümunəsi hesab edilən Pəri qalası Zaqatala rayonunun Yuxarı Çardaqlar kəndinin şimal-qərb hissəsində, Xangildağ dağının ətəyində, yerdən 150-200 metr hündürlükdə inşa edilib. Üç otaqdan ibarət olan qalanın ümumi sahəsi 30 kvadratmetrə yaxındır.

Qala ilkin görünüşünü saxlayaraq dövrümüzə qədər gəlib çatmışdır. Pəri qalası tamamilə fərqli memarlıq üslubuna malikdir. Azərbaycanda, eləcə də dünyada uca dağların üzərində tikilən qalalar çoxdur. Lakin Pəri qalasının özünəməxsus cəhəti və əsas fərqliliyi ondan ibarətdir ki, onun tikintisində daşdan istifadə olunmayıb. Qalanı qaya çapılaraq, dağı oyub içərisinə inşa ediblər.

Strateji baxımdan çox möhkəmməl yerdə tikilən qalaya sıldırım qayalarla yalnız bircə yol qalxır. Qalaya qalxmaq üçün vaxtilə qayadan yonulmuş 1-1,5 metr enində yol olub. Həmin yolun qalıqları indi də qalmaqdadır. Qayalıq ərazidə hərəkət etmək üçün xüsusi hazırlığı olan adamlar həmin cığırdan istifadə etməklə qalaya daxil ola bilirlər.

Qalanın təyinatı haqqında müxtəlif mülahizələr var. Qala elə bir mövqedə yerləşmişdir ki, əraziyə gələn bütün yollar qaladan aydın görünür. Ehtimal olunur ki, düşmən ordusunun yaxınlaşdığını görən gözətçilər dərhal elin gəlin və qızlarını, uşaqları bu qalaya qaldırar, düşmən getmədən aşağı endirməzdilər. Əfsanəyə görə qalanın adı da elə bununla bağlıdır - elin pərilərini, qızlarını qoruyan qala. Bəzi mənbələrə görə yerli əhali arasında bu qalanı "Qız qalası" və "Dağ içi qala" da adlandırıblar.

Qala haqqında məlumatları araşdırdıqda belə nəticəyə gəlmək olar ki, bu məbəd əvvəllər başqa cür adlandırılıb. Ehtimal olunur ki, məbədin Pəri qalası adlandırılması VIII əsrdə ərəblərin bu bölgəyə gəlməsi, İslam dininin yayılması və bundan sonrakı dövrlərlə bağlıdır. Görünür, strateji cəhətdən əlçatmaz dağ relyefində yerləşən bu qala ərəblərə, sonrakı dövrlərdə isə digər yadelli işğalçılara qarşı yerli əhalinin silahlı müqavimət göstərdiyi ən mühüm istehkamlardan biri olub.

Bir sıra mənbələrdə isə qalanın XIV əsrin sonlarında Cənubi Qafqaza yürüş edən Teymurləngin qoşunlarına şiddətli müqavimət göstərən yerli əhalinin əsas istehkamlarından biri olması göstərilib.



Əfsanəyə görə, qalaya hücum edən Teymurləngin qoşunlarına qarşı döyüş əməliyyatlarına Pəri adında qadın rəhbərlik edib. Əmir Teymura qalanın alınmaz olması haqqında məlumat veriblər. Bu zaman Teymurləng qalanın hücumuna şəxsən özünün rəhbərlik edəcəyini, qalanı alaraq həmin qadını da özünün xanımı edəcəyini bildirib. Lakin Pəri Teymurləngin təslim olmaq barədə təklifini rədd edib. Uzun sürən ağır döyüşlərdən sonra Əmir Teymurun qoşunu çox çətinliklə də olsa məbədi tutub. Bu zaman Pəri düşmən əlinə keçməmək üçün özünü qayadan atıb. Ehtimal olunur ki, həmin hadisədən sonra bura Pəri qalası adlandırılıb.

Rəvayətlərdən birində isə Pərinin qalada yaşaması üçün dağdakı su mənbələrindən buraya qamış borularla su xəttinin çəkildiyi də deyilir.

**"Azərbaycan Ordusu"**

# Uğurlarınız bol olsun!




Yanvarın 8-də Bakı İdman Sarayında davam edən güləş üzrə ölkə çempionatında idmançı əsgərlərimiz Pərviz Dadaşov və Kənan Abdullazadə 3-cü yer uğrunda







mübarizədə qalib olublar.

Eyni zamanda, MOİK klubunun idmançı üzvləri Elmin Əliyev 3-cü, Məhəmməd Şükürzadə isə 2-ci yerin qalibi olublar.

İdmançılarımızı qazandıqları qələbə münasibətilə təbrik edir, gələcək yarışlarda onlara uğurlar arzulayırıq.

* * *

7-11 yanvar tarixlərində Bakı İdman Sarayında keçirilən güləş üzrə ölkə çempionatında idmançı




əsgərlərimiz Ceyhun Allahverdiyev 2-ci yer, Murad Haqverdiyev 3-cü yer uğrunda mübarizədə qalib olublar.

İdmançılarımızı qazandıqları qələbə münasibətilə təbrik edir, gələcək yarışlarda onlara uğurlar arzulayırıq.

* * *

11 yanvar 2026-cı il tarixində keçirilən cüdo üzrə "Kiçik yaşlı yeniyetmələr arasında Judoko Kubunun birinciliyi"ndə Ordu İdman Klubunun




cüdoçuları Kərim Məmmədov qızıl medal, Mövlan İsgəndərli isə gümüş medal qazanıb.

Məşqçiləri Rauf müəllimi, İbrahim müəllimi və idmançılarımızı təbrik edir, uğurlarının davamını arzu edirik.

* * *

11 yanvar 2025-ci il tarixində keçirilən sambo üzrə Azərbaycan çempionatında Ordu İdman Klubunun samboçusu Natiq Bəşirov gümüş medal




qazanıb.

Məşqçisi Rauf müəllimi və idmançımızı təbrik edir, uğurlarının davamını arzu edirik.

**"Azərbaycan Ordusu"**




# Xəbərlər: hadisələr, faktlar

### Gürcüstan Müdafiə Qüvvələrinin sayı məlum olub



Gürcüstan Hökumətinin qərarına əsasən, bu ölkənin Müdafiə Qüvvələrinin sayı cari ildə dəyişməyəcək.

Ötən ildə olduğu kimi, cari ilin sonuna qədər Müdafiə Qüvvələrində xidmət edənlərin sayı 37 mini keçməyəcək.

Bu məhdudiyyət hərbi vəziyyət dövründə və ehtiyatda olanlara, eləcə də Gürcüstan Müdafiə Nazirliyinin müvəqqəti tam ştatlı işçilərinə şamil olunmur.

Qeyd edək ki, hazırda Gürcüstanda hərbi xidmət məcburi, müqaviləli, nizami və ehtiyatda olanlar da daxil olmaqla, 4 kateqoriyaya bölünür.

### Komissar: Avropa İttifaqının ümumi ordusu olmalıdır



Avropa İttifaqı qitədə dislokasiya olunmuş ABŞ qoşunlarını əvəzləyəcək ümumi orduya malik olmalıdır.

Bu açıqlama ilə Avropa İttifaqının müdafiə komissarı Andrius Kubilius çıxış edib.

Litvanın keçmiş Baş naziri hesab edir ki, qitəni daha yaxşı qorumaq üçün azı 100 min nəfərlik daimi Avropa silahlı qüvvələrinə ehtiyac var. Kubilius, həmçinin qitənin böyük ölkələrinin iştirakı ilə müdafiə şurasının da yaradılmasını təklif edib.

### İsveç hava hücumundan müdafiəyə 1,4 milyard avro ayırır



İsveç hava hücumundan müdafiəyə (HHM) 1,4 milyard avro ayıracaq. Məqsəd mümkün mülki hədəflərin daha yaxşı müdafiəsini təmin etməkdir.

Bu barədə İsveç hökumətinin rəsmi məlumatında deyilir.

Qeyd olunur ki, ölkənin HHM sistemi indiyədək başlıca olaraq hərbi obyektləri müdafiə edib. İndi isə bu siyahıya vağzallar, körpülər, elektrik stansiyaları kimi mülki obyektlər də əlavə edilib. Artıq cari ilin ilk rübündə bu məqsədlə alışlar başlayacaq.

### Belçikanın müdafiə naziri: Biz gələcəyin müharibəsinə hazır olmalıyıq



Belçikanın müdafiə naziri Teo Franken ölkəsinin gələcəkdəki müharibələrə hazır olmadığını bildirib və bu istiqamətdə hazırlıqların vacibliyini vurğulayıb.

Bu barədə nazir "Libre" qəzetinə müsahibəsində danışıb.

Onun sözlərinə görə, Belçika pilotsuz uçuş aparatları, robotlar və süni intellektdən istifadə olunan müasir müharibə formatına hazır deyil. Franken qeyd edib ki, bu, təkcə dronlarla məhdudlaşmır. "Bu, həm də robototexnika, məlumatların inteqrasiyası, pilotsuz sistemlər, kvant kompüterləri ilə bağlıdır. Biz gələcəyin müharibəsinə hazır olmalıyıq. Hazırda isə buna hazır deyilik", - deyə müdafiə naziri bildirib.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

### Azərbaycanın fiqurlu konkisürənləri Sofiyada bürünc medal qazanıblar



Azərbaycanın fiqurlu konkisürənləri Bolqarıstanın Sofiya şəhərində keçirilən "Sofia Trophy" adlı yarışda fəxri kürsüyə qalxıblar.

Samanta Ritter və Daniel Brikalov cütlüyü buz üstündə rəqs növü üzrə mübarizə aparıblar.

Onlar 11 idmançı arasında 171.75 xal toplayaraq üçüncü yerdə qərarlaşıblar və bürünc medala sahib çıxıblar.

### Güləş üzrə Azərbaycan çempionatına yekun vurulub



Yunan-Roma və sərbəst güləş üzrə Azərbaycan çempionatına yekun vurulub.

Bakı İdman Sarayında keçirilən yarışın son günündə sərbəst güləş üzrə 61, 70, 79, 92 və 125 kiloqramda medalçılar müəyyənləşib.

Çempionata 61 kiloqram çəki dərəcəsində Nürəddin Novruzov (Neftçi), Ceyhun Allahverdiyev (MOİK), Əliabbas Rzazadə (Neftçi), Fərhad Hacıyev (Neftçi), 70 kiloqramda Kənan Heybətov (Sərhədçi), Ramik Heybətov (AHİTA), Ömar Gülməmmədov (Neftçi), Mircavad Nəbiyev (AHİTA, Abşeron), 79 kiloqramda Cəbrayıl Hacıyev (AGF), Fərid Cabbarov (Neftçi), Sahib Dadaşov (Neftçi), Ramiz Həsənov (Gəncə, Təhsil 1), 92 kiloqramda Ali Tsokayev (AGF), Abubakr Abakarov (AGF), Şəmistan Axundov (Neftçi), Təbriz Bayramov (Sumqayıt, Təhsil), 125 kiloqramda isə Yusif Dursunov (Neftçi) və Giorgi Meşvildişvili (Neftçi) Azərbaycan çempionu olublar.

### Azərbaycan karateçisi Tbilisidə keçirilən turnirdə gümüş medal qazanıb



Azərbaycan karateçisi Mədinə Sadıqova Dünya Karate Federasiyasının (WKF) Tbilisidə təşkil etdiyi beynəlxalq turnirdə gümüş medal qazanıb.

55 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançı çıxış etdiyi 5 yarışda rəqiblərinə şans verməyib.

Həlledici mərhələdə iranlı karateçiyə kiçik fərqlə məğlub olan idmançımız ikinci yeri tutaraq gümüş medal qazanıb.

**AZƏRTAC-ın materialları əsasında**

Həsənov İbrahim Nurəddin oğluna verilmiş MV № 130045 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Paşayev Rafiq Xanlar oğluna verilmiş MV № 122657 nömrəli müharibə veteranı vəsiqəsi və SV № 004506 nömrəli Silahlı Qüvvələr veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
kapitan
Fuad CƏFƏROV

Lisenziya № 361
Sifariş № 8
Nüsxə 3606